# Heydər Əliyev Fondu Qax şəhərində V.Əliyev adına 3 nömrəli məktəbi istifadəyə verib

**Qax şəhərindəki V.Əliyev adına 3 nömrəli tam orta məktəb 1950-ci ildə inşa olunduğundan istifadəyə yararsız vəziyyətə düşmüşdü. Heydər Əliyev Fondunun bu ilin yanvarında yeni məktəbin tikintisi ilə bağlı apardığı işlər artıq yekunlaşıb və təhsil ocağı yeni tədris ilində şagird və müəllimlərin ixtiyarına verilib.**



AZƏRTAC xəbər verir ki, məktəbin açılışı münasibətilə keçirilən tədbirdə Heydər Əliyev Fondunun, Elm və Təhsil Nazirliyinin nümayəndələri, Qax Rayon İcra Hakimiyyətinin, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin rəhbər şəxsləri, məktəbin müəllim və şagird kollektivi, sakinlər iştirak ediblər.

Üçmərtəbəli və üç korpusdan ibarət olan məktəb binası 320 şagird yerlikdir. Məktəbdə yaradılan 14 sinif otağı, fizika, kimya, biologiya laboratoriyaları, informatika, hərbi təlim, əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt və idman zalları zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib. Təhsil müəssisəsində açıq idman meydançası da qurulub. Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri görülüb.

Açılış mərasimi Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Ümummilli Lider Heydər Əliyevin və Vətən şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev ölkəmizdə elm və təhsilin inkişafına göstərilən dövlət qayğısından, rayonun təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdən danışıb, məktəbin kollektivinə yeni dərs ilində uğurlar arzulayıb. Bildirilib ki, son illər rayonda təhsilin infrastrukturunun müasir tələblərə uyğun qurulması, təhsilin məzmununun yeniləşdirilməsi, keyfiyyətinin yüksəldilməsi istiqamətində çox böyük işlər görülüb. Diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondu tərəfindən indiyədək Qax rayonunda yeni açılan bu məktəb də daxil olmaqla, 3 məktəb binası və 2 körpələr evi-uşaq bağçası tikilərək istifadəyə verilib.

Mərasimdə Heydər Əliyev Fondunun nümayəndəsi Elvin Aslanov və Elm və Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarə olunması şöbəsinin sektor müdiri İlahə Rəsulova çıxış edərək, məktəbin kollektivini, rayonun təhsil işçilərini yeni tədris ilinin başlanması münasibətilə təbrik ediblər. Çıxış edənlər təhsil sahəsində həyata keçirilən layihələr sayəsində tədris ocaqlarının maddi-texniki bazasının daha da möhkəmləndirildiyini diqqətə çatdırıb, qazanılan uğurlardan və qarşıda duran vəzifələrdən bəhs ediblər. Bildirilib ki, təhsil sahəsi dövlətin yürütdüyü siyasətin prioritet istiqamətlərindən biridir. Paytaxtla yanaşı, regionlarda, ucqar kəndlərdə müasir standartlara uyğun belə məktəb binalarının tikintisi ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasətin uğurla davam etdiyini göstərir. Diqqətə çatdırılıb ki, Bilik Günü ərəfəsində təkcə Heydər Əliyev Fondu tərəfindən respublikamızın müxtəlif şəhər və rayonlarında 19 məktəb və 3 uşaq bağçası tikilib.

Məktəbin adını daşıyan şəhidin qardaşı Elxan Əliyev çıxış edərək məktəb üçün yeni binanın tikintisində əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Sonra tədbir iştirakçıları yeni tədris ocağında yaradılmış şəraitlə tanış olublar.

Azərbaycan.- 2023.- 17 sentyabr.- S.6.